# ÖN SÖZ ƏVƏZİ

*Başlanğıcda Allah göyü və yeri yaratdı. Yer quruluşsuz və boş idi, dərin suların üzərində qaranlıq hökm sürürdü; Allahın ruhu suların üzərində hərəkət edirdi. Allah dedi: "Qoy işıq olsun". İşıq oldu. Allah gördü ki, işıq yaxşıdır. O, işıqla qaranlığı bir-birindən ayırdı. Allah işığı "gündüz", qaranlığı isə "gecə" adlandırdı. Axşam oldu, səhər oldu. Bu, birinci gün idi. Allah dedi: "Qoy suların arasında fəza olsun və onları iki yerə ayırsın". Allah fəzanı yaratdı və onun altındakı suları üstündəki sulardan ayırdı. Belə də oldu. Allah fəzanı "göy" adlandırdı. Axşam oldu, səhər oldu. Bu, ikinci gün idi. Sonra Allah dedi: "Qoy göyün altındakı sular bir yerə yığılsın və quru görünsün". Belə də oldu. Allah qurunu "yer", bir yerə yığılmış suları isə "dəniz" adlandırdı. Allah gördü ki, bu, yaxşıdır. Sonra Allah dedi: "Qoy yerdə ot-ələf, toxum verən bitkilər və növünə görə tumlu meyvə gətirən ağaclar bitsin". Belə də oldu. Yerdə ot-ələf, növünə görə toxum verən bitkilər və növünə görə tumlu meyvə gətirən ağaclar bitdi. Allah gördü ki, bu, yaxşıdır. Axşam oldu, səhər oldu. Bu, üçüncü gün idi. Sonra Allah dedi: "Qoy gündüzü gecədən ayırmaq üçün göydə işıqsaçan cisimlər peyda olsun. Onlar bir əlamət olub fəsilləri, günləri, illəri göstərsinlər. Qoy onlar göydən yerə işıq saçsınlar". Belə də oldu. Allah işıqsaçan iki iri göy cismi düzəltdi, böyüyünü gündüzə hökm etmək üçün, kiçiyini isə gecəyə hökm etmək üçün. O həmçinin ulduzları düzəltdi. Allah onları göydə yerləşdirdi ki, yerə işıq saçsınlar, gündüzlə gecəyə hökm etsinlər və işığı qaranlıqdan ayırsınlar. Allah gördü ki, bu, yaxşıdır. Axşam oldu, səhər*

*oldu. Bu, dördüncü gün idi. Sonra Allah dedi: "Qoy sular canlılarla dolsun və göy üzündə qanadlı məxluqlar uçsun". Allah nəhəng dəniz heyvanlarını, cinsinə görə sularda qaynaşan canlıları və cinsinə görə hər cür qanadlı məxluqu yaratdı. Allah gördü ki, bu, yaxşıdır. Allah onlara xeyir-dua verib dedi: "Törəyib çoxalın və dəniz sularını doldurun, qoy qanadlı məxluqlar da Yer üzündə çoxalsın". Axşam oldu, səhər oldu. Bu, beşinci gün idi. Sonra Allah dedi: "Qoy yer cinsinə görə canlılar — ev heyvanları, vəhşi heyvanlar və sürünən heyvanlar əmələ gətirsin". Belə də oldu. Allah cinsinə görə vəhşi heyvanları, cinsinə görə ev heyvanlarını və cinsinə görə sürünən heyvanları yaratdı. Allah gördü ki, bu, yaxşıdır. Sonra Allah dedi: "Bizə bənzəyən insan yaradaq, qoy o, dənizdəki balıqlara, göydəki qanadlı məxluqlara, ev heyvanlarına, bütün Yer üzünə və Yer üzündə sürünən heyvanların hamısına hökmranlıq etsin". Beləliklə, Allah insanı Öz bənzərində, Özünə oxşar yaratdı, onları kişi və qadın olaraq yaratdı. Sonra Allah onlara xeyir-dua verərək dedi: "Törəyib çoxalın, bütün Yer üzünü doldurun və ona sahib olun. Dənizdəki balıqların, göydəki qanadlı məxluqların və yerdəki digər canlıların üzərində hökmranlıq edin". Sonra Allah dedi: "Bütün Yer üzündəki toxum verən bitkilərin və tumlu meyvələri olan ağacların hamısını sizə verirəm. Onlarla qidalanın. Bütün vəhşi heyvanlara, göydəki bütün qanadlı məxluqlara, yerdəki digər canlılara isə yem olaraq bütün yaşıl bitkiləri verirəm". Belə də oldu. Bundan sonra Allah yaratdıqlarının hamısına baxdı və gördü ki, hər şey çox yaxşıdır. Axşam oldu, səhər oldu. Bu, altıncı gün idi. Beləliklə, göyün, yerin və onlarda olan hər şeyin yaradılışı başa çatdı. Allah yeddinci günə qədər işlərini görüb qurtardı, yeddinci gün isə iş görməyib istirahət etməyə başladı. Allah yeddinci günü mübarək qıldı və onu müqəddəs elan etdi, çünki niyyət etdiyi hər şeyi yaradıb həmin gün istirahət etməyə başlamışdı.*

***TÖVRAT (Yaradılış kitabı)***

# I GÜN

Əlahəzrətin gündəliyindən:

*Deyəsən, Allah var. Hə, burada gördüklərimin elmi izahı yoxdur. Ayrıca götürsək, nə fəlsəfi, nə də məntiqi izahı var. Ona görə də, çox güman ki, Allah var!*

*Əgər Allah varsa və deyildiyi kimi, O, insana seçim imkanı veribsə, çox güman ki, insanın insana seçim imkanı verməyəcəyini düşünüb bunu edib. Əgər Allahdan sonra da insan öz təbəələrinə gerçək seçim imkanı verərsə, mütləq o imkanı bütün insanların əleyhinə çevirən bir ilan gəlib meyvəsi qadağan olunmuş ağac əhvalatını bu dəfə Cənnətdən kənarda – Yerdə təkrarlayacaq. Və Yerdən sürgün Cənnətə olmayacaq...*

# II GÜN

“Burada həyat yaşanmaz, daşınar ancaq”, – ətrafa ötəri göz gəzdirəndə ilk ağlından keçən bu oldu. Qoluna baxdı: saatı yox idi. Nəm paltarının üstündən ciblərini yoxladı: telefonu da yox idi. Əyilib indicə güc-bəla ilə dırmaşaraq içindən çıxdığı quyuya baxdı. Gözünə bir şey dəymədi. Başını geri çəkdi. Sudan qalxan kəsif qoxu quyunun başında gözlərini göynətdi. Dikəlib diqqətlə ətrafı seyr elədi. Hər yan bomboz idi. Elə bildi, gecə kimlərsə gətirib, onu dağlıq bir yerə atıb. “Nə dağlıq, ay axmaq, bura əməlli-başlı xarabalıqdır, həm də adi xarabalıq yox!” – içindən səs gəldi. Hiss elədi ki, nəsə ağlasığmaz yerdədir. Göz qapaqlarına ağırlıq edən nəm tozu əlinin arxası ilə silib gözlərini geniş açdı. Ürpəndi. Dizləri əsdi. Sağ ayağını yerə bərk basdı ki, yıxılmasın. İçindəki yenə dilləndi: “Deyəsən, vəziyyət yaxşı deyil”. Məhəl qoymadı köksündən qalxıb beynini döyəcləyən kinayəli səsə. Udquna-udquna yerində fırlanıb ətrafa baxmağa davam etdi. Deyəsən, şəhər idi gördüyü. Bəlkə də, yaşadığı şəhər. Şəhərin xarabalığı. Ayaq üstdə bir dənə də tikili yox idi göz işlədikcə uzanıb gedən bu sonsuzluqda. Böyük binaların yerində dağlar, xırdalarınkında təpələr bo-

zarırdı. Burada qara rəngi ancaq iri daşların, beton blokların arasındakı boşluqlarda, uçqunların, dağların, təpələrin koğuşlarında görmək olurdu. Ucsuz-bucaqsız boz çöllük az qala üfüqdə qaralan boz buludlarla təmas edib daha vahiməli mənzərə yaradırdı. Əgər səmanın orada-burada göyərən mavi ənginlikləri, tək-tük ağ buludlar olmasaydı, adam özünü nəhəng boz şarın içində hiss edərdi.

Tükürpərdici uğultu var idi hər yanda. Tanış səs yox idi. Heç olmasa it, pişik hənirtisi... Qulaqlarının batdığını zənn elədi. Qəfil eşidilən səs Ona kar olmadığını anlatdı. Deyəsən, dəmir səsi idi. Haradansa sürüşüb düşən dəmirin səsi. "Demək, ətrafda canlı heç nə yoxdur?" – düşündü, tükləri biz-biz oldu. Vahiməsi getdikcə artırdı: "Axı bu necə olur?" – pıçıldadı, birdən qışqırmağa başladı.

– Ey! Ey, kim var burada?! Kimsə var? Ay camaat! Mən buradayam!

Xarabalığa dəyib qayıdan səsindən başqa heç yerdən cavab almadı. "Axı nə oldu bu şəhərə?!" – deyib yaxınlıqdakı təpəyə tərəf qaçdı.

– Yox, kimsə var! Ola bilməz ki, bu boyda şəhərdə məndən savayı kimsə qalmasın! Görünür, başları qarışıb özlərinə. Hə, var kimsə. İndicə tapışacağıq. İndicə bu vahiməyə son qoyulacaq. Eyy, içimdə oturub məni qorxudan! Görərsən, bir azdan başqaları ilə ocaq kənarında oturub çay içərək sənə güləcəyəm. Bir az da şirin fətir lap yerinə düşər amma. İsti qəhvə ilə şirin fətir əla olur. Sən ki bilirsən, mən onları birlikdə necə sevirəm. Hökm oxumaq üçün müşavirəyə gedəndə də tələsik bir parça fətiri qəhvə ilə ötürürəm içəri. Amma gərək əllərimi yuyam. Belə yaxşı deyil...

Az qala yıxılacaqdı. Əl atıb paralanmış beton örtüyün çatlağından tutdu. Müvazinətini nizamlayıb ayaqlarını bir-birinə yaxınlaşdırdı, betonu buraxıb dikəldi. Əllərinə bir də baxdı: özünün düşündüyü kimi, it günündə idi ikisi də. Təpənin başına iməkləyərək dırmaşmışdı. Onsuz da ağarmağa başlamış saçı sement tozuna bulaşdığından tamam ağ görünürdü. Hərdən əlini üzünə çəkirdi deyə sir-sifəti bomboz idi. Ağzının suyu dodaqlarının tozunda palçığa dönmüşdü. Qorxudan alt dodağı çatlamışdı, palçıq ortadan qanla ikiyə bölünmüşdü. Əlini gözlərinə günlük elədi. Üstündə dayandığı təpə beşmərtəbəli binanın qalıqları idi. Ətrafdan xəbər tutmaq üçün pis hündürlük deyildi...

Hiss elədi ki, dizləri taqətdən düşür. “İlahi, sən özün kömək ol! – pıçıldadı, – Bu nədir belə, nə oldu bu şəhərə bir gecənin içində?! Hara getdi bu camaat? Doğrudanmı, hamı ölüb? Doğrudanmı, təkcə mən sağ qalmışam?! – duruxdu, udqundu, təlaş içində pıçıldadı, – Mən sağammı?!”

Sanki göydən hər yerə – dağlara, təpələrə, ucsuz-bucaqsız çöllüyə sement tozu yağmışdı bütün gecəni. Və bu toz buludların bir qismini də bulamışdı. Bəzilərinin altını, yan-yörəsini, bəzilərini də tamam bozartmışdı. Arxadan səs gəldi. Sevincək başını geri çevirdi. Bir az da kövrəldi, izdihamın içində ətrafa boylanıb anasını görməyəndə əndişələnən uşaqlarsayağı döyükdü. Kim olsa, qucaqlayıb ağlayacaqdı. Lap düşməni də olsa. Yox, beton blok idi. Qonşu təpənin başından kiminsə ehtiyatsızlığı ucbatından deyil, öz-özünə sürüşüb aşağı yuvarlanırdı. Dayandığı yerə çökdü.

– Bəs indi mən nə edəcəyəm? Bir azdan axşam düşəcək. Bu xarabalıqda bağrım çatlayar...

Gözünün yaşı tozlu yanaqlarını cırmaqlayıb bir az da eybəcərləşdirdi sifətini. Gödəkçənin qolu ilə burnunun suyunu ağzının kənarına yaxdı. Birdən nəsə xatırlayıb dəli kimi yerindən qalxdı. Gödəkçəsinin, pencəyinin ciblərini şapalaqladı. Paltarları nəm olsa da, üst-başından toz qalxdı. Üstünü çırpmırdı, fikrində tutduğunun cibində olub-olmadığını yoxlayırdı. Gözünə işıq gəldi: tapmışdı, deyəsən. Əlini gödəkçənin sağ yan cibinə salıb alışqan çıxartdı.

– Hə, buradadır. Nə yaxşı, itirməmişəm. Odun! Tez odun tapmaq lazımdır!

– Taxta-tuxta da olar. Lap elə cır-cındır da, – içindən səs gəldi yenə.

– Hə, fərqi yoxdur, əsas odur, yandırmaq olsun, – içindəkinin dediyini təsdiqlədi, – ocaq qalayaram gecə. Bəlkə, işığına gələn də oldu.

Təpədən ətrafa bir də baxdı. Gedib özünü çatdıra biləcəyi həndəvərdə bir dənə də ağac, kol-kos gözünə dəymədi. Yenə vahimə ilə pıçıldadı:

– Axı nə baş verib? Bu necə dağıntıdır ki, hər şeyi çökdürüb, toza çevirib?!

Yarı qaçaraq, yarı sürüşərək təpədən enib uzaqdakı qaraltıya tərəf yönəldi. Bir qədər getdikdən sonra gözünə ağaclıq, kölgəlik, axarlı-baxarlı yaşıllıq göründü. Sevincdən qışqırıb qaçmağa başladı. Nəfəsi kəsilənədək qaçdı, qaçdı, tövşüyə-tövşüyə yeridi, yeridi... Yaxınlaşanda gördü ki, ağac-filan yoxdur. Gözləri ona arzuladığını göstəribmiş. Qarşıdakı əyilmiş, dolaşmış, bir-birinə pərçimlənmiş çoxlu dəmir yığınıdır. Sanki güclü külək, çovğun

ətrafdakı dəmir-dümürü qovub yumaqlayaraq çöllüyün ortasına atmışdı. Gördüyü onu məyus etsə də, yerişini səngitmədi, daş-kəsəyin arası, çala-çuxurun yan-yörəsi ilə büdrəyə-büdrəyə bir xeyli gedib nəhəng yumağın önündə dayandı. Bir-birinə qaynaqlanan armaturlardan tutmuş sınıq elektrik dirəyinə, qaldırıcı kran buynuzuna, dəmiryol relsinə, helikopter pərlərinəcən hər şey vardı təxminən on iki-on beş metr hündürlüyü olan bu yöndəmsiz dəmir şarın gövdəsində. Gövdəsindəki boşluqlar, dəlmə-deşiklər, irili-xırdalı dəmirlərin aralıqları olmasaydı, bu tərəfindən o tərəf görünməsəydi, kirpi tikanlarısayağı çıxıntılarından onu nəhəng sualtı minaya da bənzətmək olardı. Bir az da irəli gedib yana əyilərək təəccüblə yumağın yuxarısına baxdı, heyrətlə dilləndi:

– Hə, gəmi lövbəridir. Lövbər haradan gəlib bura çıxıb? Axı şəhər dəniz kənarında deyildi.

Yumağın ortasından – yerdən altı-yeddi metr hündürlükdə iri lövbər sallanırdı. Zənciri dəmirlərin sıx yerindən yanpörtü dikələn top lüləsinə dolaşmışdı deyə lövbər havada asılı qalmışdı.

– Tutaq ki, top lüləsi şəhərdəki hansısa hərbi hissədən gəlib bura çıxıb. Amma lövbər... Şəhər ki dənizi görmür, – canından üşütmə keçdi, – Doğrudan, dəniz olan yerlərə qədər hər yan belə dağılıb ki, lövbər gəlib bura düşüb? – geri addımladı, – Ya bəlkə, tamam başqa yerdəyəm, məni öz şəhərimdən gətirib bura atıblar?

Ayağının altında nəsə qaldı. Çevrilib baxdı: dəmir boru idi. Basdığı yerdən ovulmuşdu. Ayağını qaldırıb borunun salamat ucuna basdı, orası da ovuldu.

– Lənət şeytana! Axı nə baş verib! – qışqırdı, – Əgər dəmir bu hala düşübsə, onda adamları, ağacları axtarmağa dəyməz ki!

Birdən nəsə düşünüb dəhşətə gəldi. “Demək, adamlar da belə olub? – öz-özündən soruşdu, – Bəs mən? Mən niyə belə olmamışam?” Çarəsizliyi getdikcə onu əldən salırdı. Səs eşidib geri çevrilərək yuxarı baxdı. Lövbər astaca yellənirdi. “Yoox, bütün dəmirlər ovulacaq hala düşməyib, yoxsa bu boyda yumaq ayaq üstə qala bilməzdi, – düşünüb toxtadı. Əgər ətrafda ovulan daşlarla yanaşı, sərt daşlar da, ovulan dəmirlərlə yanaşı, bir-birinə pərçimlənib gəriləndə belə sınmayan dəmirlər də varsa, deməli, haradasa salamat kollar da, ağaclar da, lap elə adamlar da var”. Dəmirə sürtünən zəncirin səsinə getdikcə başqa səslər də qoşulurdu, yumaq canlanırdı sanki. Birdən ayağının altında yerin titrədiyini hiss elədi. Bir anlıq hərəkətsiz dayandı, dinşədi: “Hə, yer silkələnir! Zəlzələdir!” – qışqırıb yumaqdan uzağa, gəldiyi tərəfə qaçdı. Arxada səs-küy aləmi götürsə də, çevrilib baxmadan qaçırdı. Təpələrdən iri daşlar, beton bloklar sürüşüb aşağı axırdı. Hər yerdən havaya toz qalxırdı. Torpağın üstü dizəcən toz dumanı ilə örtülür, ayaq altı görünməz olur, dağlar, təpələr öz dumanlarında yavaş-yavaş itirdilər. Təxminən futbol meydançası boyda boş əraziyə çatıb başına heç nə düşməyəcəyindən arxayın olanda dayandı. İrəli əyilərək əllərini dizlərinə dayaq elədi, nəfəsini dərdi, elə o vəziyyətdə də başını çevirib arxaya baxdı. Uzaqda, yumağın dumandan görünən yuxarı hissəsindən iri dəmirlər qopub hara gəldi uçuşurdu. Torpağın yüngül silkələnməsi bir-birinə pərçimlənmiş irili-xırdalı dəmirləri yerindən oynatmışdı deyə nəhəng yumağın ağırlığı basıb onları ətrafa